1_Layout 1 13.02.2015 13:41 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 03 (445)

16 fevral 2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## PREZİDENT İLHAM ƏLİYEV DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MÜXTƏLİF QURUMLARI, O CÜMLƏDƏN YOL POLİSİ ƏMƏKDAŞLARI ÜÇÜN YENİ ALINAN AVTOMOBİLLƏRİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK EDİB




Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Azadlıq meydanında Daxili İşlər Nazirliyinin müxtəlif qurumları, o cümlədən yol polisi əməkdaşları üçün yeni alınan və müasir avadanlıqla təchiz edilən avtomobillərin istifadəyə verilməsi mərasimində iştirak edib. Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevə raport verdi. Son illərdə yol polisinin bütün şəxsi heyətinin işinin səmərəli qurulması, yol hərəkəti təhlükəsizliyinin daha yüksək səviyyədə təmin edilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısının, qarşıda duran vəzifələrin icrası, işin daha səmərəli qurulması istiqamətində görülən tədbirlərin nəticəsidir ki, bu gün digər hüquq mühafizə orqanlarında olduğu kimi, Daxili İşlər Nazirliyi sistemində də əməkdaşların fəaliyyəti keyfiyyətcə yeni mərhələyə yüksəlib. Daxili İşlər Nazirliyi orqanlarında maddi-texniki təchizatın yaxşılaşdırılması ilə bağlı xeyli iş görülüb, yeni texniki vasitələrin alınmasına başlanılıb. Post-patrul, növbətçi hissə və çevik polis alayı, o cümlədən yol polisi əməkdaşları üçün yeni alınan “Fiat Doblo” və “BMW” markalı avtomobillər bu sırada mühüm yer tutur. Ümumilikdə, yol polisi əməkdaşları üçün 400, digər qurumların əməkdaşları üçün isə 300 avtomobil alınıb. Avtomobillərin hər biri yeni və müasir avadanlıqla təchiz edilib, e-patrol sistemi quraşdırılıb. Sistem yol-patrul xidməti (YPX) avtomobilinin həm dayandığı, həm də hərəkət etdiyi hallarda fəaliyyət göstərir. Sistemin üzərində nömrə-oxuma, ümumi müşahidə kameraları, gecə görüntüsü üçün 30 metr mənzili olan “infrared” işıqlandırma sistemi və GPS modulu quraşdırılıb. Avtomobildə daxili kompyuter qurğusu mövcuddur ki, nömrə-oxuma prosesi həmin kompyuterdə aparılır. Sistem nömrəoxuma kameraları vasitəsilə üzərində quraşdırıldığı YPX avtomobilinin yerləşdiyi zolaqdan 2 zolağadək sağda, 2 zolağadək solda hərəkət edən və ya dayanmış nəqliyyat vasitələrinin nömrə nişanlarını və sürətlərini oxumaq imkanına malikdir. Həmçinin, YPX avtomobilinə perpendikulyar istiqamətdə sağ və sol tərəflərdə parklanmış nəqliyyat vasitələrinin də nömrə nişanları oxunur. E-patrol sistemi tərəfindən nömrəsi və sürəti oxunmuş nəqliyyat vasitələri barədə məlumatlar tarix, saat, eləcə də GPS koordinatı da əlavə edilməklə mərkəzi serverdə arxivləşdirilir. Həmçinin, nömrəsi oxunan hər bir nəqliyyat vasitəsinin axtarışda olub-olmaması, cərimə ödənişlərini uzun müddət gecikdirməsi və digər məlumatlar real vaxt rejimində sorğulanaraq YPX avtomobilində quraşdırılmış bort kompyuter qurğusuna ötürülür. Sürət həddini aşmış nəqliyyat vasitələri barədə məlumatlar da Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sisteminə göndərilir. Onu da deyək ki, son dövrlərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə yol infrastrukturunun yenidən qurulması, yeni yolların, körpülərin, yeraltı keçidlərin salınması yol polisi, həmçinin yol-patrul xidməti əməkdaşlarını daha məsuliyyətli olmağa, yol təhlükəsizliyini daha yüksək səviyyədə qurmağa sövq edir. Çünki ölkədə nəqliyyat vasitələrinin artması təbii olaraq yol hərəkətində problemlərin yaranmasına da səbəb olur. Dövlət yol polisinin yeni texniki vasitələrlə təmin olunması isə bu amillərin aradan qaldırılmasına hesablanıb. Şübhəsiz ki, xidmətin səmərəli yerinə yetirilməsində patrul avtomobillərinin müasirliyi böyük əhəmiyyət daşıyır. Bu da yeni avtomobillərdə hərəkətin təhlükəsizliyinin daha etibarlı təmin edilməsinə imkan verir. Qeyd edildi ki, saxlanılan şəxslərin daşınması üçün “Mercedes” markalı 20 mikroavtobus alınıb. Prezident İlham Əliyev yeni alınmış mikroavtobuslara da baxdı.

**AzərTAc**

### “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1130-IVQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1130-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 fevral 2015-ci il

## BƏŞƏR TARİXİNİN ƏN DƏHŞƏTLİ FACİƏSİ - XOCALI SOYQIRIMI

### Bu cinayət təkcə Azərbaycan xalqına qarşı deyil, həm də insanlığa, bəşəriyyətə qarşı yönəldilmişdir

***“Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir”.***

**Heydər Əliyev,**
**Azərbaycan xalqının Ümummilli Lideri**




***“Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir”.***

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi nə idi? Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən ümumiyyətlə Xocalını yer üzündən birdəfəlik silmək məqsədi idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Xocalının kromlexləri, dolmenləri, siklopları, kurqanları və digər abidələri, həmçinin müxtəlif növ məişət əşyaları insan cəmiyyətinin inkişaf dinamikasını özündə əks etdirən maddi mədəniyyət nümunələridir. Erməni işğalından sonra bütün bu maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsiylə darmadağın edilməsi erməni vandalizminin bariz nümunəsi olmaqla yanaşı, dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır.

**1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150 nəfərinin taleyi indi də məlum deyil.**

Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilib. Hücumda həmçinin mayor Oqanyan Seyran Muşeqoviçin (Seyran Oqanyan hazırda Dağlıq Qarabağda ermənilərin qeyri-qanuni rejiminin “müdafiə naziri”dir) komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyonun, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və gizir iştirak etmişdir. (“Xocalının işğalına dair istintaq materiallarından”).

**Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilib. Rusiyanın “Memorial” hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş, 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.**

Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Xocalı sakini Əntiqə erməni hərbçilərinin tələb etdiyi “bu yerlər böyük Ermənistanın bir hissəsidir” sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən diri-diri yandırıldı. Digər Xocalı sakini Səriyyə Talıbova danışırdı ki, “4 mesxeti türkü və 3 azərbaycanlının erməni qəbirinin üzərində başını kəsdilər. Sonra daha 2 azərbaycanlının gözlərini çıxartdılar”.

Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onların başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə konvesiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir.

**Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir.**

Xocalı qaçqınlarının bu faciənin 10-cu ildönümündə BMT, Avropa İttifaqı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına etdikləri müraciətində deyilir: “10 ildən artıqdır ki, biz, qaçqın vəziyyətinə düşmüş xocalılar, ürək ağrısı və eyni zamanda böyük ümidlə bütün dünyanın sülhsevər xalqlarına, beynəlxalq təşkilatlara müraciət edirik. Sizdən xahiş edirik, erməni hərbi təcavüzü nəticəsində bizim başımıza gələn bəlaya laqeyd qalmayasınız. Biz inanırıq ki, dünyanın BMT, Aİ və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan kimi dövlətin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər”.

**Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr “Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması” konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan eləcə də Robert Köçəryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir.**

Cinayət cəzasız qalmamalıdır. Dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidir.

2_Layout 1 13.02.2015 13:44 Page 1



# JANDARMA MÜŞAVİRİ "FƏRMAN"LA MÜKAFATLANDIRILDI



Türkiyə Respublikasının Jandarma Baş Komandanlığının Daxili Qoşunların 16073 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olan daha bir hərbi qulluqçusunun fəaliyyət müddəti başa çatıb. Fevralın 9-da Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov ezamiyyət müddəti başa çatan polkovnik-leytenant Erdinç İneli və onu əvəz edəcək polkovnik-leytenant İlker Şimşeki qəbul edib.

Görüşdə cənab Komandan Türkiyə Jandarma Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında hərbi əməkdaşlıq münasibətlərinin bu gün də çox uğurla davam etdiyini vurğulayıb. Türkiyə Jandarma Baş Komandanlığının hərbi qulluqçularının əməyini yüksək qiymətləndirən general-mayor Ş.Məmmədov polkovnik-leytenant E.İnelə ezamiyyət müddətində təlim-tədrisin təkmilləşdirilməsi istiqamətində gördüyü işlərə görə minnətdarlığını bildirib.

Eyni zamanda, cənab Komandan xidmətə yeni başlayacaq polkovnik-leytenant İ.Şimşeki gələcək fəaliyyətində uğurlar arzulayıb.

Jandarm Baş Komandanlığının zabitləri onlara göstərilən diqqətə görə Daxili Qoşunların Komandanına dərin minnətdarlıqlarını ifadə ediblər.

Görüşün sonunda Daxili Qoşunlar Komandanı qoşunlarda xidməti ezamiyyətini başa vurmuş polkovnik-leytenant E.İneli "Fərman"la mükafatlandıraraq onunla xatirə şəkli çəkdirib.

**baş leytenant T.Əlizadə**

# DÖYÜŞÇÜ-ŞAİRİN ŞƏRƏFLİ ÖMÜR YOLU...





Fevralın 7-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin hərbi qulluqçuları ilə döyüşçü-şair, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, ikinci dərəcəli müharibə əlili Elxan Xəzərin görüşü keçirilib. Bu görüşdə şairin veteran dostları-Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, sədr müavini Telman Aslanov, şura üzvləri Səfxan Bayramov, Mehralı Şamxalov, Əlixan Bünyatov və Yalçın Abbasov da iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan Yalçın Abbasov ziyalı, şair və yazıçıların gənc hərbçilərlə görüşünün əhəmiyyətindən danışaraq, belə tədbirlərin şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsində böyük rol oynadığını diqqətə çatdırdı. O, bildirdi ki, yaradıcı insan kimi tanınmış şair Elxan Xəzərlə görüşlərin böyük dəyəri var. Çünki Elxan müəllim döyüşçü-şair olmaqla yanaşı, həm də Daxili Qoşunların veteranıdır. Vətənimizin bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edən şairin ömür yolu bu gün Daxili Qoşunlarda xidmət edən hərbçilərə örnəkdir.

Görüşdə şairin vətənpərvərlik ruhunda yazılmış "Döyüşçü nəğməsi", "Biz etməsək, kim edəcək?", "İndi hünər vaxtıdır" və s. şeirləri gənc hərbçilər tərəfindən söylənildi.

Sonda Elxan Xəzər kitablarından ibarət nümunələri hərbi qulluqçulara hədiyyə edərək onlarla xatirə şəkli çəkdirdi.

**gizir N.Rzayeva**

*Yanvarın 31-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının köməkçisi polkovnik Rasim İsmayılov və Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində gənc əsgərlərlə görüşüb.*

# GƏNC ƏSGƏRLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB

Tədbiri giriş sözü ilə açan hərbi hissə komandiri polkovnik Salamat Cəfərov gənc əsgərlərin qəbulu, yerləşdirilməsi və təlim-tədrisinin təşkili prosesinin daima Daxili Qoşunlar Komandanlığının diqqət mərkəzində olduğunu nəzərə çatdırdı. Əlavə etdi ki, Daxili Qoşunların sıralarına yeni qəbul edilən gənc əsgərlərlə görüşlərin keçirilməsində də əsas məqsəd məhz bundan ibarətdir.



Sonra polkovnik M.Qənbərov çıxış edərək respublikada, o cümlədən Daxili Qoşunların həyatında baş verən yeniliklərdən söz açdı. Daxili Qoşunların vəzifələrini gənc əsgərlərin diqqətinə çatdıran şöbə rəisi bildirdi ki, xidmət dövründə hərbi qulluqçunun bütün hərəkətləri yalnız müvafiq nizamnamələrin tələbləri ilə müəyyənləşdirilir. O, eyni zamanda Daxili Qoşunlarda sağlam mühitin, mehriban kollektivçiliyin hökm sürdüyünü deyərək, qarşılıqlı münasibətlərdə bu kimi amillərin nəzərə alınmasının vacibliyini vurğuladı.

Vətənpərvərlik hissi aşılanan çıxışda o da vurğulandı ki, hər bir əsgər Daxili Qoşunlarda xidməti ilə fəxr etməlidir. Çünki Daxili Qoşunlar Qarabağ uğrunda gedən ağır döyüş əməliyyatlarının aparıldığı bir vaxtda yaranıb, səngərlərdə formalaşıb. Torpaqlarımızın müdafiəsi zamanı Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının qəhrəmanlıq nümunələri barədə də şəxsi heyətə ətraflı məlumat verildi.

Daha sonra Daxili Qoşunlar Komandanının tələb və tövsiyələrinin çatdırılması üçün söz polkovnik R.İsmayılova verildi. O, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun gənc əsgərlərin kazarma-məişət şəraiti, təchizatı, qidalanması və sağlamlıq durumunun vəziyyətinin yoxlanılması məqsədilə mütəmadi olaraq hərbi hissələrdə olduğunu xatırladaraq, xüsusi olaraq vurğuladı ki, Daxili Qoşunlar Komandanlığı nəinki gənc əsgərlərin, o cümlədən sıralarımızda xidmət edən bütün hərbi qulluqçular üçün hərtərəfli şəraitin yaradılmasında maraqlıdır: "Hərbi hissələrimizdə xidmətin təşkili üçün hərtərəfli şəraitin yaradılması yalnız bir məqsədə - şəxsi heyətin döyüş hazırlığının və mənəvi-psixoloji durumun yüksəldilməsinə xidmət edir". Qeyd olundu ki, bu gün Daxili Qoşunlar ən müasir silahlar, hərbi texnika və digər zəruri avadanlıqlarla təchiz olunub. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların Komandanlığı tərəfindən bu istiqamətdə bundan sonra da müvafiq tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdıran polkovnik R.İsmayılov çıxışını Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Ş.Məmmədovun fikri ilə yekunlaşdırdı: "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatələnmiş Daxili Qoşunların şəxsi heyəti bundan sonra da öz fədakar xidməti ilə ölkə başçısının etimadını doğruldacaq".



Görüşün sonunda gənc əsgərləri maraqlandıran suallar cavablandırıldı.

**Mətbuat xidməti**

# MİNNƏTDARLIQ

***Əziz oxucularımız, hörmətli silahdaşlarım!***

*"Əsgər" qəzetinin ünvanına Daxili Qoşunların Hərbi qospitalında müayinə və müalicə olunan hərbi qulluqçular və onların ailə üzvləri tərəfindən çoxlu sayda minnətdarlıq məktubları daxil olur. Biz də redaksiya heyəti olaraq məktubların qəzet səhifəsində işıqlandırılmasını təmin edirik.*

*Bu dəfə isə "sol böyrəyin kəskin ağrıları" diaqnozu ilə qospitala daxil oldum. Müayinə zamanı sol böyrəyimdə kiçik ölçülü daşın olduğu aşkarlandı. Müalicə olunduğum Urologiya şöbəsinin rəisi polkovnik-leytenant Rüfət Hacıyevin, o cümlədən tibb personalının (baş tibb bacısı kiçik gizir Bahar Həmidova, tibb bacıları gizir Aliyə Əliyeva, gizir Sveta Quluyeva, gizir Səadət Ağayeva, baş çavuş Aidə Əliyeva, baş çavuş Elmira Qasımzadə) böyük zəhməti hesabına qısa müddət ərzində sağalaraq yenidən xidmət yerinə qayıtmağıma nail oldum. Müalicəmin uğurla aparılmasında əllərindən gələni əsirgəməyən, başda qospitalın rəhbərliyi olmaqla, bütün Urologiya şöbəsinin tibbi kollektivinə dərin minnətdarlığımı bildirirəm.*

**baş leytenant T.Əlizadə**

## NÜMUNƏVİ XİDMƏT

# ONLAR BİZİM BU GÜNÜMÜZ VƏ SABAHIMIZDIR

***Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babək İmaməli oğlu Həsənov 1990-cı il mart ayının 13-də Lerik rayonunda dünyaya göz açıb. Orta məktəbi böyüyüb boya-başa çatdığı rayonda bitirib. Əsgəri xidmətini 2008-ci ildə Müdafiə Nazirliyinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində keçib.***



Hələ məktəb vaxtlarında Azərbaycanın qəhrəman oğullarına həsr olunan tarixi filmləri böyük maraqla izlədiyini deyən Babək sanki özünü həmin qəhrəmanların yerinə qoyur və gələcəkdə şücaəti ilə yoldaşlarından fərqlənmək arzusu ilə yaşayırdı. Məhz bu arzu, bu istək onu hərbçi olmağa sövq edib. Beləliklə, o, 2013-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət etməyə başlayır. Az bir müddətdə həm bölmə komandirinin, həm də yoldaşlarının dərin rəğbətini qazanıb.

Xidməti fəaliyyətini günün nizam qaydalarının tələblərinə uyğun təşkil edən əsgər B.Həsənov keçirilən bütün məşğələlərə böyük həvəslə qatılır və əldə etdiyi nəticələrə görə digər hərbi qulluqçulara həqiqi mənada əsl nümunə olur. Məsuliyyət hissini hər şeydən üstün tutan hərbçi, komandir tərəfindən verilən bütün tapşırıqları dəqiqliklə yerinə yetirir, bölmədə mənəvi-psixoloji durumu aşağı olan yoldaşlarına da xidmətində irəliləməyə köməklik göstərir.

Onun digərlərindən fərqli cəhəti həm də bölmənin divar qəzetinin müxbiri kimi fəaliyyətidir. Əsgər B.Həsənov qəzetin vaxtında hazırlanmasını daima nəzarətdə saxlayır. O, bu işə çox sevimli bir məşğuliyyəti kimi yanaşır, qəzetin tərtibatına diqqət yetirir.

Vətəninə, dövlətinə sədaqətlə xidmət edən nizam-intizamlı hərbçi düşünür ki, zəhmətlə, sevgiylə görülən hər bir iş sonda uğurlu nəticəyə gətirib çıxarır.

Həqiqətən də bu cür gənc və bacarıqlı oğulları ilə Azərbaycan xalqı fəxr edir. Onlar bizim bu günümüz və sabahımızdır.

**gizir N.Rzayeva**

# GƏNC ƏSGƏRLƏRİN MUZEYLƏ TANIŞLIĞI



Daxili Qoşunların tarixi, formalaşma dövrü, vəzifələri, o cümlədən torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş hərbi qulluqçularımızın göstərdiyi qəhrəmanlıq nümunələri barədə geniş məlumat əldə etmək məqsədilə yanvarın 31-də gənc əsgərlər qoşunların 67987 saylı hərbi hissəsinin ərazisində yerləşən muzeydə olublar. Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri baş leytenant Anar Əhmədov gənc əsgərləri muzeydə yerləşdirilmiş kompozisiya və Daxili Qoşunların tarixini əks etdirən eksponatlarla tanış edib, onlar haqqında dolğun məlumat verib.

Qeyd olunub ki, muzey 2 böyük, 4 kiçik zaldan, muzey fondundan və muzey rəhbərinin iş otağından ibarətdir.

Birinci mərtəbədə yerləşən böyük zalda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Daxili Qoşunların ilk döyüşə başladığı gün 12 mart tarixinin onun yaranma günü kimi qeyd olunması barədə 9 mart 1995-ci il tarixli fərmanı, «Daxili Qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş Daxili Qoşunların vəzifələri əks olunmuş lövhələr, qaya parçaları üzərində Qoşunların şəxsi heyətinin döyüş əməliyyatlarında istifadə etdiyi silahlar, Daxili Qoşunların Azərbaycan Demokratik Respublikası dövründə «Yardım alayı» adı ilə mövcud olması barədə məlumatlar və eksponatlar, alaya rəhbərlik etmiş tanınmış ictimai-siyasi xadim Yusif Ziya Talıbzadənin həyatı və fəaliyyəti, 1992-ci ildə Daxili Qoşunların canlı qüvvələrinin Ağdərə, Ağdam və digər rayonların müdafiəsi uğrunda döyüşlərə cəlb olunması barədə Daxili Qoşunların Komandanının əmrləri, zirehli texnikanın müşayiəti ilə manqanın hücuma keçməsi və Daxili Qoşunların respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı iştirak etdiyi bölgələrin göstərildiyi kompozisiyalar, ilk döyüşə cəlb olunmuş 200 nəfərə qədər şəxsi heyətin və hərbi hissənin komandanlığının adlı siyahısı, Füzuli rayonunun Horadiz sərhədyanı yaşayış məntəqəsi uğrunda gedən döyüşlər zamanı 5 nəfər hərbi qulluqçumuzun düşmən texnikası qarşısından çəkilməyərək qəhrəmancasına həlak olma səhnəsi simvolik olaraq göstərilmişdir.

Birinci kiçik zalda Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının şəkilləri, şəxsi əmlakları və döyüşlər zamanı istifadə etdikləri ləvazimatlar əks olunmuşdur.

Həmçinin burada Daxili Qoşunların əldə etdiyi nailiyyətlər, həyata keçirdiyi xüsusi əməliyyatlar, xüsusi-taktiki təlimlər, 1999-cu il tarixdə Qobustan qapalı islah əmək müəssisəsində və 2005-ci il tarixdə 11 saylı islah əmək müəssisəsində keçirdikləri xüsusi əməliyyatlar və həmin tədbirlərdə istifadə olunan xüsusi vasitələr, geyim dəstləri və s. eksponatlar, həmçinin Daxili Qoşunların inkişafını əks etdirən fotoşəkillər lövhələrdə yer almışdır

İkinci kiçik zalda isə Daxili Qoşunların Ağdam, Ağdərə və Füzuli rayonlarının müdafiə edilməsində döyüş yolunu əks etdirən fotoşəkillər, şəxsi əmlaklar, döyüşlər zamanı istifadə olunmuş rabitə avadanlıqları və s. ləvazimatlar yerləşdirilmişdir.

Bundan əlavə, Daxili Qoşunların Beynəlxalq əlaqələrinə həsr edilmiş tədbirlər və görüşləri əks etdirən fotoşəkillər, beynəlxaq təşkilatlar tərəfindən verilmiş eksponatlar, Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyətinə və Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına dair Protokol haqqında 1998-ci il tarixli Respublika Prezidentinin sərəncamı, Ulu Öndərin Azərbaycan-Türkiyə qardaşlıq, dostluq əlaqələri barədə söylədiyi fikirlər, tövsiyələr əks olunmuşdur.

İkinci mərtəbədə olan Böyük zalda Ümummilli Lider Heydər Əliyev və Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdikləri diqqət və qayğını əks etdirən güşə yaradılmışdır.

Qeyd edək ki, Daxili Qoşunların muzeyində ümumilikdə iki kompozisiya və 650 ədəddən çox eksponat mövcuddur.

**"Əsgər"**

3_Layout 1 13.02.2015 13:45 Page 1



***Müasir döyüş əməliyyatlarında aparıcı mövqeye malik hissələrdən biri də Hərbi Hava Qüvvələridir. Döyüşün müvəffəqiyyətlə başa çatmasında qırıcılarla yanaşı, helikopterlərin də rolu danılmazdır.***

***Bu gün Daxili Qoşunların da üzərinə düşən tapşırıqların yerinə yetirilməsini, habelə təyin olunmuş regiona şəxsi heyətin vaxtında çatdırılmasını helikopter eskadrilyası uğurla həyata keçirir.***



## “ESKADRİLYA HƏR BİR TAPŞIRIĞI UĞURLA YERİNƏ YETİRMƏYƏ HAZIRDIR!”

Daxili Qoşunların helikopter eskadriliyası Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən, “N” saylı hərbi hissənin tərkibində yaradılmışdır. 2009-cu ilin avqust ayından etibarən eskadrilya ayrıca hərbi hissə kimi fəaliyyətə başlamışdır.

Hərbi hissə komandirinin uçuş üzrə müavini polkovnik-leytenant Vüqar Məmmədov eskadrilyanın fəaliyyəti barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, hərbi hissənin əsas vəzifələri fövqəladə hallar zamanı şəxsi heyətin, maddi vəsaitlərin əməliyyat yerinə vaxtında daşınması, patrul-nəzarət, axtarış və xilasetmə, həmçinin havadan kəşfiyyatın aparılması və xüsusi əməliyyatlar zamanı qoşunları havadan dəstəkləməkdir. Qısa müddət ərzində peşəkar kollektivin formalaşdığını deyən polkovnik-leytenant V.Məmmədov helikopter eskadrilyasının cəlb olunduğu əməliyyatları müvəffəqiyyətlə yerinə yetirdiyini bildirdi. O, müvafiq rayonlarda sabitliyi pozmaq niyyətində olan cinayətkarların aşkar edilib zərərsizləşdirilməsi istiqamətində xüsusi təyinatlı dəstələrlə birgə təlim uçuşları ilə yanaşı, ötən il “xaş-xaş” şərti adı altında aparılan xüsusi əməliyyat zamanı eskadrilyanın axtarış-xilasetmə qrupunun həvalə olunmuş tapşırığı uğurla yerinə yetirdiyini vurğuladı.

Ardınca hərbi qulluqçularla keçirilən məşğələlərdən söz açan komandir müavini təlimlərin illik plana əsasən təşkil olunduğunu dedi. Planlar mürəkkəb hava, sadə meteoroloji şəraitdə, gecə uçuşları, dağlıq ərazilərdə uçuşların yerinə yetirilməsi, axtarış-xilasetmə növlərinə bölünür. O, məşğələlər zamanı əsas diqqətin uçuş heyətinin öyrənilməsinə, uçduğu çalışmalar üzrə təhlükəsizliyini, uçuşda hər hansı bir hadisə baş verərsə, aradan qaldırılmasına, eləcə də marşurut uçuşlarını uçarkən rayonlar üzrə qarşıya çıxan oriyentirlərin və “GPS”-lə uyğunlaşdırmaların öyrədildiyini söylədi. Onun sözlərinə görə, praktik təlimlərdən sonra heyətin icra etdiyi çalışmalar üzrə yol verilmiş nöqsanlar təhlil edilir və əlavə olaraq helikopterin kabinasında məşğələlər keçirilir.

Polkovnik-leytenant V.Məmmədov bütün sadalanan təlimlər zamanı əsas iki şərtin vacibliyini diqqətə çatdırdı. Birincisi, uçuşların həyata keçirilməsindən əvvəl texniki heyətin fəaliyyəti, ikincisi isə hərbi qulluqçuların mənəvi-psixoloji durumudur. Bu iki şərt ciddi nəzarətdə saxlanılır.

Texniki heyət helikopter mühərriklərinin reqlament və istismar, aviasiya avadanlıqları reqlament və istismar, radioelektron avadanlıqları reqlament və istismar, aviasiya meteoroloji qruplarından ibarətdir. Qruplar uçuşdan öncə mühərriklərin, yanacağın yoxlanılması, o cümlədən digər parametrlər üzrə nasazlığın olub-olmamasını aydınlaşdırır. Sonra helikopteri uçuş üçün tam hazır vəziyyətə gətirir.

Digər bir vacib amil barəsində isə paraşüt-desant və axtarış-xilasetmə qrupunun rəisi (eyni zamanda hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsini müvəqqəti icra edir - T.Ə.) mayor Vüqar Gülmalıyev danışdı. O, şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək olduğunu bildirdi. Uçuş zamanı hərbi qulluqçuların əhval-ruhiyyəsinin yüksək olmasının vacibliyini qeyd edən komandir müavini onlarla aparılan tərbiyə işi barədə məlumat verdi. Qeyd etdi ki, şəxsi heyətlə tərbiyə işi Daxili Qoşunlar Komandanının müvafiq direktivinə əsasən təşkil edilir. Onlarla tərbiyə saatları keçirilir və bu zaman hərbi qulluqçularda ruh yüksəkliyinin formalaşması istiqamətində söhbətlər aparılır. Şəxsi heyət arasında mənəvi-psixoloji durumu aşağı olan hərbi qulluqçu aşkar olunduqda, dərhal uçuş heyətindən kənarlaşdırılır və onunla fərdi qaydada söhbət aparılır. Beləcə, hərbi qulluqçunun yenidən əhval-ruhiyyəsinin yüksəlməsinə nail olunur. Bütün görülən işlər təbii ki, daimi yüksək döyüş hazırlığının qorunub saxlanılmasına xidmət edir. Komandir müavini xidmətdə fəallıqları ilə seçilən kapitan Emin Manafovun (qərargahda bort-texnik-təlimatçı), kapitan Rəşad Cumayevin (ekipaj komandiri) və leytenant Emil Xasmetovun (ekipaj komandiri) adlarını qeyd etdi.

Hərbi hissə komandanlığının fikirləri deməyə əsas verir ki, yüksək döyüş hazırlığına malik helikopter eskadrilyası qarşıya çıxa biləcək hər hansı bir qəfləti tapşırığı yerinə yetirməyə tam hazırdır.

**baş leytenant T.Əlizadə**

# QURUCULUQ İŞLƏRİ DAVAM EDİR...

## Müasir tələblərə cavab verən obyektlər xidmətin keyfiyyətli təşkilinin əsasıdır

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən ordu quruculuğu sahəsindəki islahatlar Silahlı Qüvvələrimizin nüfuzunu günü-gündən artırır. Genişmiqyaslı təmir-tikinti, abadlıq-quruculuq və yenidənqurma işləri DİN-in Daxili Qoşunlarında da sürətlə həyata keçirilir. Son illərdə Qoşunların demək olar ki, bütün hərbi hissələrində yeni-yeni obyektlər, xidməti yaşayış mənzilləri tikilib şəxsi heyətin istifadəsinə verilir.***

Bu baxımdan Daxili Qoşunların 16075 saylı hərbi hissəsinin ərazisində tikilən yanacaq sürtkü materialları (YSM) anbarı da müasir tələblərə cavab verən obyektlərin siyahısındadır. Burada aparılan quruculuq-abadlıq işləri və ümumiyyətlə, YSM xidmətinin fəaliyyəti barədə ətraflı məlumat almaq üçün anbar rəisi gizir İlyas Tağıyevlə söhbət etdik.

O, yaradılmış hər cür şəraitə görə DİN rəhbərliyinə və Daxili Qoşunların Komandanlığına dərin minnətdarlığını bildirərək, əsaslı təmirdən sonra YSM anbarında xidməti daha keyfiyyətli şəkildə təşkil etdiklərini diqqətə çatdırdı. Təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu deyən anbar rəisi xidmətin təşkilini Daxili İşlər Nazirinin təlimatına və Daxili Qoşunların Komandanının müvafiq əmrinin tələblərinə əsasən qurduqlarını diqqətə çatdırdı. Günün nizam qaydalarına uyğun olaraq, qarovul rəisinin iştirakı ilə hər səhər YSM anbarı yoxlanılır, nöqsan aşkar olunmadıqda postlar cədvəlində anbarın açılmasının qeydiyyatı aparılıb, təhvil alınır. Bununla yanaşı o, hər gün YSM anbarında mövcud yanacaqların sıxlıq dərəcələrinin ölçüldüyünü və yanacağın sıxlığının “Qeydiyyat aparma” kitabında qeyd olunduğunu bildirdi.

Hərbi hissənin birinci yarımili üçün (qış tədris dövrü) əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planına əsasən, hər həftənin şənbə günü park təsərrüfat günləri keçirilir. Bu zaman YSM anbarının



ərazisində təminat bölüyünün əsgərləri tərəfindən təmizlik və abadlaşdırma işləri aparılır. Təmizliyin qorunub saxlanılması gündəlik olaraq diqqət mərkəzində saxlanılır. Ayın yekununda, yəni növbəti ayın ilk günləri hərbi hissənin yanacaq-sürtkü materialları anbarları üzrə aylıq hesabat Daxili Qoşunların Baş İdarəsinə göndərilir.

Ümumiyyətlə, hərbi hissənin yanacağa olan tələbatı hər ay Bakı Neft Bazası və Azpetrol şirkəti tərəfindən ödənilir. Həmçinin, ildə iki dəfə yay və qış mövsümünə keçidlə əlaqədar olaraq nəqliyyat vasitələri mövsümə uyğun yağlarla, sürtkü materialları və xüsusi mayelərlə təmin olunur. Mütəmadi olaraq anbarda YSM materiallarının qorunub saxlanılması və sərfiyyatı ciddi şəkildə yoxlanılır. Yaxşı hal kimi qeyd edə bilərəm ki, keçirilən yoxlamalar zamanı heç bir artıqlıq və ya əskiklik aşkar olunmayıb.

Gizir İ.Tağıyev əlavə etdi ki, YSM xidmətinin düzgün təşkili, eyni zamanda döyüş hazırlığının qorunub saxlanılmasında müstəsna əhəmiyyət kəsb edir: "Təbii ki, istənilən döyüş tapşırığının keyfiyyətlə və operativ qaydada yerinə yetirilməsində avtomobil və zirehli texnikaların rolu danılmazdır. Bu baxımdan hərəkətə gətirilən hərbi texnikaların YSM-lə təminatına tərəfimizdən vaxtaşırı nəzarət edilir. Qarşımızda duran əsas vəzifələrdən biri də budur. Əgər xidmətə məsuliyyətlə yanaşılarsa, o zaman döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasına nail olmaq mümkündür".

**gizir N.Rzayeva**

*metodiki vəsait*

# SƏHRA ÇIXIŞININ TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ METODİKASI

***Daxili Qoşunların qarşısında duran xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində şəxsi heyətin səhra çıxışının təşkili və keçirilməsinin böyük əhəmiyyəti var. Bu baxımdan son zamanlar bölmələrin səhra çıxışı təlim forması kimi ön plana keçir.***

***Səhra çıxışı döyüş təliminin müxtəlif fənn və mövzuları üzrə keçiriləcək məşğələlər arasında ən vacib növlərindən biridir. Çünki məhz səhra çıxışı zamanı, döyüş şəraitinə maksimum yaxınlaşdırılan vəziyyətdə hərbi qulluqçuların fərdi və kollektiv məharətləri üzrə çıxarılır, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində mənəvi-psixoloji keyfiyyətləri formalaşdırılır. Qabaqcıl zabitlər səhra çıxışı şəraitində əsgər və çavuşların döyüş şəraitinin yüksəldilməsi üzrə bir çox imkanlar əldə edirlər.***

Bu gün səhra çıxışı anlayışı prinsipial olaraq yeni məzmuna malikdir. Bu döyüş, ictimai-siyasi hazırlıq proqramının mövzularının məşq etdirilməsi, təlim-döyüş texnikası və səhra maddi-texniki tədris bazasından istifadə edilməsi ilə, taktiki fonda, taborla (bölüklə) keçirilən kompleks səhra məşğələsidir. Səhra çıxışının keçirilməsi zamanı əsas diqqəti Daxili Qoşunların taktiki hazırlığı (20% az olmayaraq), taktiki hazırlıq (30% az olmayaraq), atəş hazırlığı (30% az olmayaraq) fənlərinə, döyüş maşınlarının idarə edilməsi (10-15% qədər) kimi məsələlərə yönəltmək lazımdır. Səhra çıxışı üçün məşğələlərin mövzuları döyüş hazırlığı proqramının tələblərinə və səhra çıxışının məqsədinə uyğun hərbi hissənin qərargahı tərəfindən müəyyən olunur. Bu zaman keçirilən təlimlərin davamiyyəti 10 saatdan az olmayaraq müəyyən olunmalıdır. Bütün məşğələlər normativlərin yerinə yetirilməsi ilə başa çatdırılır. Səhra çıxışı keçirilən zaman ən geniş yayılmış təlim formaları aşağıdakılardır:

- digər fənlərlə kompleks şəkildə taktiki və taktiki-sıra məşğələləri;
- döyüş maşınlarından iriçaplı silahlardan və atıcılıq silahlarından atəşaçma;
- bölmələrin tərkibində kalon şəklində döyüş maşınlarının idarə olunması üzrə praktiki məşğələlər.

Əsas təlim - məşq hesab edilir.

Səhra çıxışı zamanı bölmələrin səhra bilikləri, onların mütəşəkkilliyi, döyüş reallığına uyğunlaşdırılmış şəraitdə ixtisaslar üzrə əsgərlərin fərdi bilikləri təkmilləşdirilir. Real səhra şəraitində bölmələrin və hərbi qulluqçuların döyüş şəraitində, fövqəladə vəziyyət zamanı və digər ekstremal hallarda rastlaşa biləcəkləri kompleks fəaliyyət üsulları məşq etdirilir.

Bununla yanaşı, keçiriləcək taktiki təlimlər üçün komandirlərin, idarəetmə orqanlarının və şəxsi heyətin hazırlığı həyata keçirilir, praktiki olaraq səhra şəraitində döyüş və ictimai-siyasi hazırlığın, həyat və məişətin təşkili üzrə biliklər aşılanır. Onlarla birlikdə təlimlərə cəlb olunan bölmələrin səhra çıxışına çıxarılması, təlimə cəlb olunması məqsədəuyğundur.

Səhrada olarkən bölmələr döyüş şəraitinə uyğun yerləşdirilməli, fərdi çadırlarda, koma və qazmalarda, özlərini hücumdan, yüksək dəqiq silahlardan qorumaq üçün sığınacaq düzəltməli və yerləşdiyi rayonu mühafizə etməlidirlər.

Səhra çıxışının təşkili barədə qərarı hərbi hissə komandiri qəbul edir və çıxış hissə komandirinin müavinlərinin rəhbərliyi altında keçirilir. Əlahiddə taborlarda isə səhra çıxışı tabor komandirinin rəhbərliyi altında keçirilir.

### SƏHRA ÇIXIŞINA HAZIRLIQ

Şəxsi heyətin səhra çıxışının təşkili, hazırlanması və keçirilməsi məqsədilə hərbi hissənin qərargahında müvafiq sənədlər işlənib hazırlanır:

*- hərbi hissə komandirinin “Səhra çıxışının təşkili və keçirilməsi haqqında” əmri;*
*- səhra çıxışına hazırlıq tədbirlərinin (təqvim planı) planı;*
*- bölmələrin səhra çıxışının keçirilmə planı;*
*- səhra çıxışı zamanı tərbiyə işinin təşkili planı;*
*- səhra çıxışının maddi-texniki təminat planı (avtomobillərin düzülüş sxemi, marşrut sxemi, kalonun hərəkət sxemi və sair sənədlər əlavə edilir);*
*- radiorabitənin (naqil) sxemləri;*
*- təlim fənləri üzrə məşğələlərin keçirilmə sxemi;*
*- bölmələrin səhra şəraitində yerləşdirilməsi və mühafizəsinin təşkili sxemi;*
*- səhra çıxışının məşğələləri cədvəli;*
*- səhra çıxışına cəlb olunan qüvvə və vasitələrin hesabı;*
*- atıcılıq təliminin keçirilməsi haqqında hissə komandirinin əmri;*
*- hərbi hissə komandirinin “Səhra şəraitində xidmətin təşkili haqqında” əmri;*
*- səhra çıxışı üçün gün nizamı;*
*- motoresursun, döyüş sursatının, imitasiya vasitələrinin hesabı;*
*- qarovulun, gündəlik naryadların xidməti sənədləri (həmçinin yanğından mühafizə tədbirlərinə riayət etmə);*
*- məşğələlərin plan konspekti;*
*- səhra çıxışının nəticələrinə dair arayış;*
*-hərbi hissə komandirinin “Səhra çıxışının nəticələri haqqında” əmri.*

Bundan əlavə, səhra çıxışı üçün hesabat blankları, təlim və metodiki ədəbiyyatlar və digər lazım olan sənədlər hazırlanır.

Bölmələrin səhra çıxışının keçirilməsinə hazırlıq əvvəlcədən, 2 həftədən gec olmayaraq başlanır. Hazırlıq prosesinə aşağıdakılar daxildir:

*- səhra çıxışının təşkili və planlaşdırılması üçün ilkin məlumatların öyrənilməsi;*
*- planlaşdırıcı və təşkilati sənədlərin hazırlanması;*
*- çıxış marşrutlarının, toplanma rayonunun, taktiki sahələrin, hərbi atəş meydanlarının kəşfiyyat yolu ilə öyrənilməsi və onların təchizatı;*
*- bölmələrin səhra çıxışına cəlb olunan məşğələ rəhbərlərinin, bölmələrin şəxsi heyətinin, silah və texnikanın, maddi - texniki vasitələrin hazırlanması;*
*- lazımi maddi – texniki tədris bazasının hazırlanması;*
*- bölmələrin hazırlığına baxış keçirilməsi;*
*- nəzarət və köməklik göstərmək.*

Hərbi hissələrin qərargahı tərəfindən hərbi hissənin (bölmələrin) səhra çıxışına hazırlığının təqvim planı işlənib hazırlanır. Plana aşağıdakı bölmələr daxildir:

**I. Təşkilati tədbirlər**
**II. Metodiki - təlimat məşğələlərinin hazırlanması və keçirilməsi qaydaları**
**III. Bölmələrin səhra çıxışına hazırlanması**
**IV. Maddi-texniki tədris bazasının və səhra çıxışı rayonunun hazırlanması**
**V. Nəzarət və köməklik göstərmək.**

Hərbi hissədə səhra çıxışının təşkili və keçirilməsi məqsədi ilə aşağıdakı məsul şəxslər təyin olunur:

*- səhra çıxışının rəhbəri;*
*- səhra çıxışının rəhbərinin müavinləri;*
*- tibb məntəqəsinin rəisi;*
*- ərzaq xidmətinin rəisi və zərurət olduqda digər vəzifəli şəxslər.*

Səhra çıxışının təşkili və keçirilməsi üçün rəhbərə köməklik məqsədi ilə hərbi hissənin qərargahından zabitlər də təyin oluna bilər.

Bölmələrin səhra çıxışı, hərbi hissənin qərargahı, hissə komandirinin müavinləri, xidmət və bölmə rəisləri ilə birgə planlaşdırılıb həyata keçirilir. Səhra çıxışının əmr və planını hərbi hissənin qərargahı işləyib hazırlayır.

Bölmələrin səhra çıxışının hazırlanması və keçirilməsi barədə hissə komandirinin əmrində aşağıdakılar müəyyən edilir:

*- səhra çıxışının keçirilməsinin məqsədləri, tapşırıqları və müddətləri, onun təşkili və keçirilməsində, eləcə də təlim yerlərindəki məşğələlərə cavabdeh olan vəzifəli şəxslər;*
*- səhra çıxışına cəlb olunmuş bölmələrin və gücləndirici bölmələrin tərkibi;*
*- silah, texnika, maddi-texniki vasitələr eləcə də motoməsrəflərin, döyüş sursatlarının, yanacaq sürtkü materiallarının, imitasiya və digər vasitələrin sərf olunma normaları;*

***(davamı gələn sayımızda)***

**Əməliyyat və döyüş hazırlığı İdarəsinin Döyüş hazırlığı şöbəsi**

4_Layout 1 13.02.2015 13:47 Page 1



## BİZİM ŞÜAR: "NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. Çar Rusiyası dağıldıqdan sonra, **1918-ci ildə** Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyəz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## HƏRBİ XİDMƏTİN FORMALAŞDIRDIĞI ƏN MÜHÜM KEYFİYYƏTLƏR...





**Əsgər Kamran Aşurov** 1993-cü il aprel ayının 12-də Gəncə şəhərində anadan olub. 2010-2014-cü illərdə Milli Aviasiya Akademiyasının "Avianəqliyyat istehsalatı" fakültəsində ali təhsil alıb.

**Əsgər Anar Kərimov** isə 1993-cü il fevral ayının 17-də Goranboy rayonunun Dəliməmmədli kəndində dünyaya göz açıb. Orta təhsilini doğma kəndində başa vurduqdan sonra 2010-2014-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetində "Ümumi iqtisadiyyat" fakültəsində ali təhsil alıb.

Hər iki hərbi qulluqçumuz 2014-cü ilin iyul ayından 25033 saylı hərbi hissədə əsgəri xidmətə başlayıb. Xidmətləri ərzində müsbət keyfiyyətləri, çalışqanlıqları, həmçinin, bilik və bacarıqları nəticəsində həm komandirlərinin, həm də yoldaşlarının xüsusi hörmətini qazanmağa nail olublar.

Müddətli həqiqi hərbi xidmətə başlamazdan öncə hərbçi peşəsi barədə yalnız nəzəri cəhətdən məlumatlı olduğunu deyən əsgər K.Aşurov artıq əsgərlik dövründə praktik olaraq silah-sursatlarla tanış olduğunu, bir neçə silah növünün taktiki-texniki xüsusiyyətlərini, eləcə də onlardan düzgün istifadə qaydalarını öyrəndiyini qürur hissi ilə nəzərə çatdırdı. O, hərbi xidmətin onda formalaşdırdığı ən mühüm keyfiyyətlərdən biri kimi özünəinam hissini qeyd etdi.

Əsgər A.Kərimov da əsgər yoldaşı ilə həmfikir olduğunu bildirdi. Əlavə etdi ki, bütün sadalanan keyfiyyətlərlə yanaşı, həm də fiziki cəhətdən hazırlıqlıdırlar. Fiziki və daxili iradələri qarşılaşdıqları hər bir çətinliyin öhdəsindən asanlıqla gəlməyə imkan verir.

İnanırıq ki, nümunəvi xidmətilə seçilən hərbi qulluqçularımız hərbi xidmət dövründə qazandıqları müsbət keyfiyyətlərdən mülki həyatda da bəhrələnəcək, cəmiyyətdə layiqli mövqe tutacaqlar.

**baş leytenant T.Əlizadə**

# İDMAN

## ALİ HƏRBİ MƏKTƏB YARIŞIN QALİBİ OLDU

**"2015-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, yanvarın 24-25-də 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda ağırlıq çəki daşlarının qaldırılması və armrestlinq üzrə yarış keçirilib.**

Yarışda Daxili Qoşunların Ali Hərbi Məktəbi və hərbi hissələri üzrə 13 komanda, 91 nəfər hərbi qulluqçu iştirak edib.

Ağırlıq çəki daşlarının qaldırılması üzrə şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**65 kq**

**I yer** - çavuş Nurani Mikayılov (67987 saylı hərbi hissə)
**II yer** - əsgər Repin Roman İqoroviç (16075 saylı hərbi hissə)
**III yer** - gizir Rahim Orucov (16073 saylı hərbi hissə)

**70 kq**

**I yer** - baş çavuş Amin Bağışov (16073 saylı hərbi hissə)
**II yer** - əsgər Xanlar Dibirov (16077 saylı hərbi hissə)
**III yer** - baş çavuş Akif Müslümov (25033 saylı hərbi hissə)

**75 kq**

**I yer** - çavuş Elmar İlyasov (17074 saylı hərbi hissə)
**II yer** - əsgər Fərid Nəsirov (99713 saylı hərbi hissə)
**III yer** - çavuş Elvin Abbasov (25033 saylı hərbi hissə)

**80 kq**

**I yer** - çavuş Hilal Əliyev (99713 saylı hərbi hissə)
**II yer** - əsgər İnqilab Məmmədli (17074 saylı hərbi hissə)
**III yer** - çavuş Rabil Əliyarov (25033 saylı hərbi hissə)

**85 kq**

**I yer** - çavuş Yaxin Rasim (Ali Hərbi Məktəb)
**II yer** - əsgər Orxan Sirxayev (16076 saylı hərbi hissə)
**III yer** - əsgər Sirus Fərəcov (17074 saylı hərbi hissə)

**90 kq**

**I yer** - leytenant Rəşad Kərimov (12318 saylı hərbi hissə)
**II yer** - çavuş Ruslan Mürşüdov (16075 saylı hərbi hissə)
**III yer** - leytenant Rəşad Bağıyev (17074 saylı hərbi hissə)

**+90 kq**

**I yer** - kiçik çavuş Faiq Abbasov (16075 saylı hərbi hissə)
**II yer** - çavuş Yaşar Yaşazadə (67987 saylı hərbi hissə)
**III yer** - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə)

**ARMRESTLİNQ ÜZRƏ**

**65 kq**

**I yer** - gizir Elnur Vəliyev (16076 saylı hərbi hissə)
**II yer** - əsgər Erik Camalov (16077 saylı hərbi hissə)
**III yer** - çavuş Röyal Abbaslı (99713 saylı hərbi hissə)

**70 kq**

**I yer** - kiçik çavuş Abdurəhman Mahmudov (Ali Hərbi Məktəb)
**II yer** - baş çavuş Akif Müslümov (25033 saylı hərbi hissə)
**III yer** - çavuş Eldar Sərdarov (17074 saylı hərbi hissə)

**75 kq**

**I yer** - kiçik çavuş Əfqan Zaxmayev (16077 saylı hərbi hissə)
**II yer** - çavuş Emin Əsədov (Ali Hərbi Məktəb)
**III yer** - gizir Kamran Bağırov (67987 saylı hərbi hissə)

**80 kq**

**I yer** - əsgər Pərviz Xaşalov (Ali Hərbi Məktəb)
**II yer** - çavuş Rizvan Məhərov (16077 saylı hərbi hissə)
**III yer** - çavuş Mirzə Məmmədov (17074 saylı hərbi hissə)

**85 kq**

**I yer** - əsgər Özal Ələsgərov (12318 saylı hərbi hissə)
**II yer** - əsgər Orxan Sirxayev (16076 saylı hərbi hissə)
**III yer** - əsgər Zaur Zeynalov (99713 saylı hərbi hissə)

**90 kq**

**I yer** - baş çavuş Orxan Məhərrəmov (25033 saylı hərbi hissə)
**II yer** - leytenant Rəvan Yaqubov (12318 saylı hərbi hissə)
**III yer** - gizir Salman Musayev (99713 saylı hərbi hissə)

**+90 kq**

**I yer** - kiçik çavuş Faiq Abbasov (16075 saylı hərbi hissə)
**II yer** - baş əsgər Tural Mustafayev (17072 saylı hərbi hissə)
**III yer** - əsgər Rasif Kübərov (16076 saylı hərbi hərbi hissə)

Komanda birinciliyinə gəldikdə, cədvələ 24 xalla Ali Hərbi Məktəb başçılıq edib. 16075 saylı hərbi hissə (20 xal) və 12318 saylı hərbi hissə (17 xal) isə müvafiq olaraq 2-ci və 3-cü yerləri paylaşıb.

3 xalla 17072 və aktivində heç bir xalı olmayan 25031, 17077 saylı hərbi hissələr son pillələrdə qərarlaşıb.

## QOŞUNLARIN YIĞMA KOMANDASI BİRİNCİ YERƏ LAYİQ GÖRÜLÜB

**Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən, fevralın 5-7-də daxili işlər orqan və hissələri arasında güc çoxnövçülüyü üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib.**

Daxili Qoşunların yığma komandası yarışda 9 idmançı və 1 nümayəndə ilə təmsil olunub. Ağırlıq çəki daşları qaldırma üzrə şəxsi birincilikdə 75 kq çəki dərəcəsində 99713 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Nəsirov Fərid Əvəz oğlu, 85 kq çəki dərəcəsində 16076 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Sirxayev Orxan Mahir oğlu 1-ci yeri, 80 kq çəki dərəcəsində 99713 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Əliyev Hilal Üzeyir oğlu 2-ci yeri, 75 kq çəki dərəcəsində 16077 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Dibirov Xanlar Ramiz oğlu isə 3-cü yeri tutub.

Qol güləşi üzrə şəxsi birincilikdə isə 65 kq çəki dərəcəsində 16076 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Vəliyev Elnur Cavad oğlu, 70 kq çəki dərəcəsində Ali Hərbi Məktəbin hərbi qulluqçusu kiçik çavuş Mahmudov Abdurəhman Kamil oğlu, 85 kq çəki dərəcəsində 12318 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Ələsgərov Özal Əfqan oğlu və +90 kq çəki dərəcəsində 16075 saylı hərbi hissənin hərbi qulluqçusu kiçik çavuş Abbasov Faiq Namiq oğlu 1-ci yerə, 75 kq çəki dərəcəsində 16077 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Zaxmayev Əfqan Musa oğlu, 85 kq çəki dərəcəsində 16076 saylı hərbi hissənin hərbi qulluqçusu əsgər Sirxayev Orxan Mahir oğlu və 90 kq çəki dərəcəsində 25033 saylı hərbi hissənin hərbi qulluqçusu baş çavuş Məhərrəmov Orxan Şakir oğlu 2-ci yerə layiq görülüblər.

**Daxili Qoşunların yığma komandası komanda birinciliyində I yeri tutub.**

Yarışda yüksək nəticələr göstərdiklərinə görə Daxili Qoşunların yığma komandasının üzvləri Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmri ilə mükafatlandırılıblar.

## 17074 SAYLI HƏRBİ HİSSƏ DAHA ÇOX SƏRRASTLIQ NÜMAYİŞ ETDİRİB

**Fevralın 7-8-də isə Ali Hərbi Məktəbin atıcılıq tirində Daxili Qoşunların zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları arasında atıcılıq üzrə yarış keçirilib.**

Yarışda Daxili Qoşunların Baş İdarəsindən, Ali Hərbi Məktəbdən və hərbi hissələrdən 14 komanda (84 nəfər) iştirak edib. Şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**AKM silahından**

**I yer** - baş çavuş Əlvan Hüseynov (17074 saylı hərbi hissə)
**II yer** - çavuş Elşən Əliməmmədov (99713 saylı hərbi hissə)
**III yer** - çavuş Məmməd Hacıyev (17074 saylı hərbi hissə)

**Makarov tipli tapança (kişilər arasında), PM-1**

**I yer** - baş leytenant Emin Muradəliyev (Ali Hərbi Məktəb)
**II yer** - baş çavuş Şamil Əhmədov (17074 saylı hərbi hissə)
**III yer** - baş leytenant Şahin Quliyev (Ali Hərbi Məktəb)

**Makarov tipli tapança (kişilər arasında), PM-4**

**I yer** - baş leytenant Elçin Quliyev (25033 saylı hərbi hissə)
**II yer** - polkovnik-leytenant Cabbar Daşdəmirov (67987 saylı hərbi hissə)
**III yer** - leytenant Tamerlan Bəşirov (99713 saylı hərbi hissə)

**Makarov tipli tapança (qadınlar arasında), PM-1**

**I yer** - gizir Lamiyə Qüdrətova (DQBİ)
**II yer** - baş əsgər Günel Novruzova (99713 saylı hərbi hissə)
**III yer** - kiçik çavuş Pərvanə Mütəllimova (16077 saylı hərbi hissə)

**Makarov tipli tapança (qadınlar arasında), PM-5**

**I yer** - baş əsgər Şəidət İsayeva (17074 saylı hərbi hissə)
**II yer** - baş əsgər Dinarə Xudaverdiyeva (67987 saylı hərbi hissə)
**III yer** - baş əsgər Günel Novruzova (99713 saylı hərbi hissə)

Komanda üzrə nəticələrə gəldikdə isə 17074, 99713 saylı hərbi hissələr və Ali Hərbi Məktəb ilk üçlükdə qərarlaşıb.

Son üç yeri isə daha zəif nəticələr əldə etdiklərinə görə 16073, 16076 və 17077 saylı hərbi hissələr tutublar.

**leytenant X.Tağıyeva,**
**gizir N.Rzayeva**

## Allah rəhmət eləsin

25031 saylı hərbi hissənin şəxsi heyəti polkovnik Salamat Cəfərova **bibisinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DQBİ-nin şəxsi heyəti mayor Gülağa Meybiyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DQBİ-nin şəxsi heyəti mayor İlqar Hacıyevə **nənəsinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

16077 saylı hərbi hissənin şəxsi heyəti gizir Cəlil Nəzərova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000